# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPA YOLLARI

**Əfəndiyeva M.N.**

*Bakı Dövlət Universiteti*
*mehpareafandiyeva@gmail.com*

Azərbaycanın Vətən Müharibəsində böyük zəfərindən və torpaqlarımızın işğaldan azad edilməsindən sonra ölkəmiz üçün yeni bir dövr başlayıb. Postkonflikt dövrünün ən başlıca vəzifəsi işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasını təmin etmək, əraziləri minadan təmizləmək, infrastruktur qurmaqdır. Gündəmdə duran başlıca məsələlərdən biri işğaldan azad olmuş rayonlarda yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olan ərazilərdir. Hazırda aerofotoşəkillərə əsasən erməni işğalları tərəfindən bu yataqların bir hissəsinin vəhşicəsinə istismar edildiyi müşahidə olunub.

Ulu Öndər Heydər Əliyev həmişə çıxışlarında deyirdi ki, "Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir". Bu gün Azərbaycan respublikasının işğalda olan ərazilər şanlı ordumuz tərəfindən azad edilmişdir. Hələ 2003-cü ildə milli liderimiz Heydər Əliyev xalqa müraciətində demişdir ki, "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək". Artıq bu gün Prezidentimiz İlham Əliyevin sayəsində Azərbaycan öz ərazi bütövlüyünə qovuşub. BMT-nin Ətraf Mühit Proqramın Avropa üzrə Regional Nümayəndəliyinin ofisi ilə ayrı-ayrılıqda keçirilən onlayın görüşlərdə Qarabağ bölgəsinin təbii sərvətlərinə, ətraf mühitinə, biomüxtılifliyinə zərər dəyməsi, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimizin məqsədli şəkildə məhv edilməsi barədə bir daha xarici təmsilçilər məlumatlandırılıb. İşğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarının iqtisadi kontekstlə yanaşı, həm də bir sıra ekoloji poblemlərə gətirib çıxarmışdır. Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, reqionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur. Azərbaycan tərəfi Sərsəng su anbarının daimi təhlükə, humanitar, ekoloji və texnogen fəlakət mənbəyinə çevrildiyini dəfələrlə bəyan etmişdir. İşğaidan azad olunmuş ərazilərdə su ehtiyatları və onlardan yararlanma imkanlarından səmərı istifadəsi, su ehtiyatlarının iqtisadiyyatımızın irəliləyişində donüş yaradacağına, digər su ehtiyatlarının paylanmasına və idarə olunmasına öz müsbət təsirini göstərəcək.

Qarabağın dağətəyi ərazilərində çoxlu qazılmış artezian quyularının suyundan istifadə olunurdu. Bu sular çox təmiz, yeraltı sular olduğuna görə onlardan içməli su kimi məişətdə istifadə olunması məqsədə uyğundur. Çay suları isə minerallar, üzvü birləşmələr baxımından zəngin olduğundan əkin sahələrinin suvarılması üçün daha münasibdir. Qarabağ ərazisində su hövzələri, onların su tutumu, hansı təyinatla istifadə edildiyi və hazırda seysmik dayanıqlığı barədə araşdırmalar aparmaq üçün layihələr hazırlanır. Qarabağ ərazisində dövlət əhəmiyyətli iri qurğular, su anbarları, elektrik stansiyaları vardır. Bu yaxın gələcəkdə bu qurğuların seysmik dayanıqlığını öyrənilməsi planlaşdırılır. Yeni tikiləcək obyektlərin ərazilərinin seysmikliyinin təyinində, ekoloji layihələrin icrasına başlanması və mütəxəssislər tərəfindən ABŞ, Kanada istehsalı olan müasir, yüksək dəqiqlikli maqnitometrlər, mühəndisi seysmik işləri aparmaq üçün seysmik avadanlıqlar, müasir CPS sistemli cihazlardan istifadə etməklə mühüm nəticələr əldə edilməsi nəzərə tutulur.

Torpaqların kənd təsərrüfatı istehsalına yararlıq baxımından 30 ilə yaxın müddətdə işğal altında olduğuna görə istifadəsiz qalması "vandallar" tərəfindən qeyri-düzgün istifadəsi, çirkləndirilməsi, yararsız hala düşməsi, kənd təsərrüfatı dövriyyəsində birbaşa istifadəsi mümkünsüz olmuşdur. Hazırda bu torpaqların əsas hissəsi işğaldan azad edilmişdir və qarşıda duran ən vacib prolemlərdən biri həmin torpaqların bərpası və maksimum səmərəli istifadə edilməsindən ibarətdir. İşğldan azad olmuş ərazilərimizdə kənd təsərrüfatının inkişaf istiqamətlərini düzgün müəyyən etmək, kənd təsərrüfatına yararlı torpaqlardan istifadənin səmərəliliyini təmin etmək üçün torpaq örtüyünün xüsusiyyətlərini və onun kənd təsərrüfatına yararlıq səviyyəsini nəzərə almaq olduqca vacibdir. Təsərrüfat fəaliyyətini səmərəli istiqamətini və istehsalın strukturunu düzgün müəyyən etmək üçün təsərrüfatın başçısı (sahibkar) ilk növbədə regional yetişdirilən kənd təsərrüfatı məhsullarından hansının daha çox gəlir gətirəcəyini araşdırmalıdır. Bu məqsədlə əsas məhsullar üçün texnoloji xəritələr tərtib edərək 1 hektar sahədən məhsul istehsalına tələb olunan xərcləri hesablamalı, regionda yetişdirilən əsas məhsulların bazar qiymətlərini (qiymətin dəyişmə meylini nəzərə almaqla) dəqiqləşdirməlidir. Bununla yanaşı kənd təsərrüfatına yararlı torpaqların keyfiyyət göstəricilərinə görə aqroistehsal qrupları üzrə bölgüsü verilməli və keyfiyyət səviyyəsi digər iqtisadi rayonlarla müqayisə edilməlidir. Hazırda işğaldan azad olmuş Füzuli, Zəngilan və Ağdam, Qubadlı, Cəbrayıl rayonları ərazilərində, Şərq çinarı olmaqla, ümumilikdə, 2000-dək müxtılif növ ağac əkilib və digər meşə ağaclaının toxumları səpilib.

Qarabağ ərazisinin yeraltı sərvətləri talan edildiyindən bütün faydalı qazıntı yataqları yenidən işlənməli və həmin yataqların kompleks tədqiqatlar aparılmalıdır. Şahbulaq əhəngdaşı yatağı, Əsgəran mineral yatağı, Çıldıran tuf yatağı, Çiləbürt gəc yataqları intensiv olaraq ermənilər tərəfindən istismar edilmiş, alınan məhsulların çoxu regiondan kənara çıxarılmışdır. Qarabağ ərazisinin yeraltı sərvətləri digər maddi və mənəvi nemətlər kimi Aərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən, müdrik siyasəti sayəsində tezliklə əsl sahibi tərəfindən istismara başlanacaq və həmin yataqların gəlirlərindən ölkəmizin inkişafı üçün istifadə ediləcək. Qarabağ əsasında Şuşa, Xankəndi, Kəlbəcər və Laçın ərazilərində magistral yolların

çəkilməsi, dövlət əhəmiyyətli obyektlərin tikilməsi işlərinə başlanılmışdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərgi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq tədbirlərini dünya heyranlıqla izləyir. İşğaldan azad edilmiş ərazilərdə hidroloji obyektlərin Coğrafi İnformasiya Sistemləri (CİS) bazasında, "Azərsky" və dron şəkilləri əsasında elektron xəritəsinin yaradılması, həmin ərazilərin rayonların ümumi və baş planlarının hazırlanması, şəhərsalma və infrastruktur yenilənməsi, layihələrinin sürətli və planlı şəkildə aparılması, yolların çəkilişi ilə bağlı vahid planların tərtibi, həmçinin mədəni irsin və tarix-mədəniyyət abidələrinin bərpası və qorunması üzrə atılan mühüm addımlar, turizm imkanlarının prespektivləri barədə əməlli tədbirlər sistemli fəaliyyətinin nəticələridir. Hazırda Qarabağ və Şərqi Zəngəzurda 11 istiqamətdə yol layihələri reallaşdırılır. Ümumi uzunluğu 607,8 km olan bu yola Prezidentimiz İlham Əliyev "Zəfər yolu" adını verib və bu yolun 2024-cü ildə başa çatdılması nəzərdə tutulub. Zəngəzur dəhlizi tam bərpa olunduqdan sonra Naxçıvan dəmir yolu fəaliyyətini davam etdirəcək. Şərq-Qərb Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini daha da artıracaq. Bir sözlə, zirvələrə aparan yollarımız çoxalmaqdadır. Dövlətimizin başçısı İlham Əliyev 270 yaşı tamam olan Şuşanın bərpasını sürətləndirmək məqsədi ilə 2022-ci il "Şuşa ili" elan edib. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yüksək gərginlikli xətlər çəkilib, yarımstansiya tikilib. "Şuşa ili" qədim şəhərin inkişafına çox güclü təkan olacaq. Bildiyimiz kimi, "ağıllı kənd" konsepsiyası əsasında ilkin işlər Zəngilanın Ağalı kəndində aparılır. Füzuli rayonunun ərazisində eyni tipli böyük yaşayış məntəqəsi yaradılır ki, bu beş kəndi birləşdirən layihə cari ilin sonuna qədər tamamlanacaq və kəndlər həqiqi sahiblərinə veriləcək. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" möhkəm iqtisadi təmələ əsaslanan vəzifələrin artıq yerinə yetirilməsi ilə bağlı bir kompasdır. Qarşıdakı 10 il üçün nəzərdə tutulan quruculuq-abadlıq işlərinin dəqiq ünvanları, həlli istiqamətləri artıq bəllidir. İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaqla yeni layihələrin reallaşdırılması gözəl prespektivlərdən soraq verir.